# Şəhid ailələri və qazilərin hüquqları dövlətin diqqət mərkəzindədir

***Ölkəmizdə ardıcıl olaraq sosialyönümlü siyasət həyata keçirilir və aparılan işlərin, qəbul edilən qərarların mərkəzində Azərbaycan vətəndaşı durur. Azərbaycan Prezidentinin siyasətinin ana xəttini ölkə vətəndaşlarının sosial rifahı təşkil edir. Son iki ildə sosial ödənişlər üzrə xərclərin 60 faiz artması bu siyasətin bariz nümunəsidir. “Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında” Qanun layihəsi ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev deyib ki, pensiya xərcləri son illər ərzində 48 faiz artıb. Son 3 ildə isə ölkədə pensiyalar – əlilliyə görə 60 faiz, ailə başçısını itirməyə görə 75 faiz, ünvanlı sosial yardım isə 81 faiz artırılıb, minimum pensiya 110 manatdan 200 manata çatdırılıb. Gələn il Dövlət Sosial Müdafiə Fondunun (DSMF) büdcəsində 3,1 faizlik artım planlaşdırılır. Ümumilikdə, gələn il üçün həm gəlirlər, həm də xərclər baxımından DSMF-nin büdcəsi artırılır.***







Mərkəzləşdirilmiş elektron informasiya sistemində “Zəfər” altsistemi yaradılacaq. Fərmana əsasən, nazirlik 1 ay ərzində altsistemi quraraq, Müdafiə, Daxili İşlər, Ədliyyə nazirlikləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Dövlət Sərhəd Xidməti, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və yerli icra hakimiyyəti orqanlarının həmin altsistemə çıxışını təmin edəcək.

Qeyd olunan qurumlar “Zəfər” altsistemi qurulandan sonra altı ay müddətində şəhid və şəhid ailəsi statusu, müharibə veteranı statusu almış şəxslərə dair məlumatları bu altsistemə daxil edib dövlət başçısına məlumat verəcək. Eləcə də şəhid və şəhid ailəsi statusu, müharibə veteranı statusu verildiyi tarixdən 5 iş günü müddətində bu barədə məlumatlar altsistemə daxil ediləcək. Həmçinin ƏƏSMN müharibə protezlərlə təminata başlanılıb. Vətən müharibəsində yaralanaraq aşağı və yuxarı ətraflarını itirmiş qazilərimizdən artıq 157 nəfəri 166 yüksək texnologiyalı son nəsil protezlə təmin edilib. Onlardan 144-ü aşağı ətraflarını itirmiş qazilərdir. Bu qazilərə təqdim edilən “Genium” tipli yüksək texnologiyalı protezlər aktivlik və funksionallığı ilə seçilir. İstifadəçiyə köməkçi vasitələr olmadan sərbəst və inamlı hərəkətə, qeyri-bərabər səthlərdə addımlamağa, müxtəlif məkanlarda maneəsiz dönməyə, hərəkətin tam və daha dəqiq tənzimlənməsinə imkan verir. Digər 13 qazi isə yuxarı ətraflarını itirmiş qazilərdir ki, onlar “ÖSSUR Touch Bionics” protezləri ilə təmin olunub. Bu protezlər yuxarı ətrafları amputasiya olunmuş şəxslərə xüsusi proqram təminatı vasitəsi ilə sosial həyata daha tez və rahat inteqrasiya imkanı yaradır. “ÖSSUR i-Limb Ultra” bioelektrik əl darağının 18 fərqli tutma variantı mövcuddur. Komplektə istifadəçinin seçiminə uyğun fərqli rəng və ölçülərə malik 6 silikon əlcək də daxildir.

İttifaqları Konfederasiyası, MDB Dövlətlərarası Statistika Komitəsi və s. təşkilatların nümayəndələri iştirak ediblər. İclasda pandemiya dövründə əhalinin 48 faizini əhatə edən və 3,5 milyard manat maliyyə tutumu olan hərtərəfli sosial – iqtisadi paketin icra edildiyi bildirilib. Son üç ildə ölkəmizdə minimum əmək haqqının 2 dəfədən çox, orta aylıq əməkhaqqının 66 faiz artdığı, bütün sosial – iqtisadi proqramların vaxtında və uğurla icra olunduğu diqqətə çatdırılıb.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun bir il əvvəl 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi zəfər qeyd edilib. Ermənistanın işğalından azad edilmiş ərazilərin bərpası və ölkə iqtisadiyyatına inteqrasiyası istiqamətində genişmiqyaslı işlər aparıldığı vurğulanıb. Bildirilib ki, azad edilmiş bölgələrdə iqtisadi fəallıq, layiqli həyat şəraiti təmin olunacaq, zəruri kadr potensialı yaradılacaq, aktiv məşğulluq proqramları icra olunacaq. Bütün bu işlər ölkəmizin sosial – iqtisadi inkişafının əsaslarını daha da

Komissiyası yaradılıb, qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair kompleks Tədbirlər Planı təsdiq edilib. Görülən kompleks tədbirlər nəticəsində 2017-ci ildən əmək müqavilələrinin sayı 29 faiz artıb.

Sosial xidmətlər sektorunda şəffaflığı, operativliyi və rahatlığı təmin edən DOST layihəsi, “e-sosial” portalı, “Məşğulluq” altsistemi, onların sosial sahədə mühüm əhəmiyyəti barədə məlumat verilib. Bu ilin 9 ayında nazirliyin e-xidmətlərinə 11,5 milyon, Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminə isə 104,9 milyondan çox müraciət edilib. Yaxın vaxtlarda əmək və məşğulluq sahəsində bütün xidmətləri özündə birləşdirən “Əmək münasibətləri və məşğulluq” vahid e-platforması da istifadəyə veriləcək. İclasda MDB İcraiyyə Komitəsi və MDB-yə üzv dövlətlərin əmək, məşğulluq və sosial müdafiə üzrə dövlət orqanlarının rəhbər vəzifəli şəxsləri tərəfindən sosial – əmək sahəsində əməkdaşlığın yekun-

və uşaq evlərində saxlanılan, Azərbaycan vətəndaşları olan həmin uşaqların ilkin tibbi və psixoloji müayinəsi həyata keçirilib, onlara zəruri yardım göstərilib. Ölkəmizə gətirildikdən sonra uşaqların hər birinə psixoloq, sosial işçi təyin olunub. Onlara bağlı fərdi plan əsasında, həmçinin aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq şəraitində reabilitasiya və reinteqrasiya proqramının icrasına başlanılıb.Sosial tərəfdaşların dəstəyi ilə qış paltarları ilə təmin edilikdən sonra uşaqların ailələrinə, yaxın qohumlarına verilməsinə başlanacaq. Sonrakı mərhələdə də onlara sosial–psixoloji dəstək davam edəcək, yerləşdikləri ailələrlə psixososial reabilitasiya işi aparılacaq.

Azərbaycan hökuməti tərəfindən bu vaxtadək İraqdan və Suriyadan repatriasiya olunmuş digər şəxslərlə, onların yaşadıqları ailələrlə bağlı da Sosial Xidmətlər Agentliyi ehtiyaclarına uyğun sosial–psixoloji reabilitasiya proqramı tərtib edilməklə sosial işlər aparıb. Həmin şəxslər psixoloji məsləhətlərə, maarifləndirici tədbirlərə, asudə vaxtlarının mənalı keçmələri üçün müxtəlif dərnəklərə cəlb edilirlər. Hazırda da onlarla sosial işlər davam etdirilir.

Sosial Xidmətlər Agentliyinin sosial xidmət müəssisələrində, həmçinin həssas əhali qruplarından olan 2 minə yaxın şəxsə stasionar şəraitdə reabilitasiya yönümlü sosial xidmətlər göstərilir. Agentliyin 13 sosial xidmət müəssisəsi fəaliyyət göstərir ki, onların hər birində müasir tələblərə uyğun yaşayış və reabilitasiya şəraiti yaradılıb. Qurumun sosial xidmətçiləri və sosial agentlər tərəfindən isə 8,6 mindən çox tənha ahıl və əlilliyi olan şəxs evlərində sosial–məişət xidməti ilə təmin olunur. Onlara ev təsərrüfatında təmizlik işlərinin aparılması, əsas tələbat mallarının alınması və s. işlərdə köməklik göstərilir.

Dövlət uşaq müəssisələrindəki uşaqların doğma ailə mühitinə qayıdışına nail olunması istiqamətində işlərin davamı olaraq, bu il 63 uşaq həmin müəssisələrdən ailələrinə qaytarılıb. Bu il həmçinin 99 uşaq (47-si oğlan, 52-si qız) isə övladlığa verilib. Övladlığagötürmə sahəsində idarəetmə 1 noyabr 2019-cu ildən ƏƏSMN tərəfindən həyata keçirilir. Həmin vaxtdan sonra nazirlik tərəfindən “Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə” altsistemi yaradılaraq istifadəyə verilib, övladlığagötürmə prosesinin e-infrastruktur üzərindən aparılmasına başlanıb. Övladlığagötürmə ilə bağlı müraciətlər də e-qaydada edilir və müraciətin statusu ilə bağlı valideyn–namizədin şəxsi kabinetinə müvafiq məzmunda bildiriş göndərilir. Qeyd olunan vaxtdan bəri 131 uşaq övladlığa verilib, onlardan 64-ü oğlan, 67-i qız uşağıdır. Uşaqlar övladlığa verildikdən sonra onların ailələrdə inkişafı üçün şəraitin yaradılmasına ciddi nəzarət, ailələrdəki vəziyyətinin öyrənilməsi üçün dövri olaraq monitorinqlər həyata keçirilir.

Onu da deyək ki, cari ilin yanvar – sentyabr aylarında ƏƏSMN -nin fəaliyyət sahələrinə dair 465 min elektron arayış verilib. Əmək münasibətləri, məşğulluq, sosial təminat, sosial sığorta, əlillik, reabilitasiya və s. sahələr üzrə xidmətlərin elektronlaşdırılması proqramı çərçivəsində nazirlik tərəfindən son iki ildə 30 növ e-arayış xidməti də yaradılaraq istifadəyə verilib. Sosial təminat növləri, sosial sığorta, əmək, məşğulluq, əlillik, mənzil və avtomobillə təmin edilmə, fərdi şəxsi hesab və s. barədə arayışları vətəndaşlar artıq hər hansı quruma müraciət etmədən, e-qaydada əldə edə bilirlər. Nazirliyin elektron xidmətlərinə isə 2021-ci ilin 9 ayı ərzində 11,5 milyon müraciət qeydə alınıb. Müraciətlər üzrə əmək münasibətləri, məşğulluq, sosial müdafiə və sosial təminat, sosial sığorta, əlillik və reabilitasiya, övladlığagötürmə və s. üzrə vətəndaşlara xidmətlərin göstərilməsi təmin olunub. Ümumilikdə nazirlik üzrə 170 xidmətdən 105-i e-platforma üzərindən göstərilir. Bu e-xidmətlərin böyük hissəsi sosial təminat sahələri ilə bağlıdır. Həmçinin 44 e-xidmət proaktiv qaydada (şəxsin sosial təminat növünə hüququ yarandığı halda bu hüququn müraciət olunmadan və sənəd təqdim edilmədən avtomatik reallaşdırılması) xidmətlərin göstərilməsini təmin edir. Hazırda qurumun fəaliyyət sahələri üzrə daha 56 xidmətin də elektronlaşdırılması üçün işlər aparılır. Onlardan 20-ə qədəri proaktiv xidmətlər olacaq.

Onu da qeyd edək ki, nazirlik tərəfindən bu ilin iyun ayında başladılan “Məşğulluq marafonu”na bu günədək 568 işəgötürən qoşulub. Onlardan 29-u dövlət, 273-ü özəl müəssisələrdir. Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin və müharibədə yaralanmış qazilərimizin məşğulluğuna dəstək məqsədi daşıyan marafona təqdim edilən vakansiya sayı 3269-a çatıb. Həmin vakansiyalar üzrə verilən göndərişlər əsasında artıq 1024 nəfər (160 şəhid ailəsi üzvü və 864 qazi) işlə təmin olunub. Hazırda da bu kateqoriyalardan olan vətəndaşlara vakansiyalar üzrə göndərişlərin verilməsi davam edir.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 14 noyabr.- S.10.